95
G 85

İSSN-0207-4710
2014-cü il

# GÖYƏRÇİN

1

## Qış





Hekayə



Nağıl



Şeir

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 2154 92.

# DURNA LƏLƏYİ

*(Yapon nağılı)*

Qədim zamanlarda dağ kəndində bir qoca qarısı ilə birlikdə yaşayırdı. Onların uşaqları olmadığı üçün çox qəmgin idilər. Bir dəfə ca meşəyə gedəndə qulağına səs gəldi. Yaxına dib gördü ki, ayaqları ağacın budağına ilişən na nə qədər çalışırsa canını qurtara bilmir.

Qoca yaxına gedib durnanın ayaqlarını ağacın sından çıxırdı. Quş qanadlanıb uçdu. Göydə yrə vurub sevinclə nəğmə oxumağa başladı.

Axşam şam yeməyi zamanı qapı döyüldü. Qoca di:

-Gecənin bu vaxtı görəsən kimdi gələn?

O, qapını açanda gözəl bir qız gördü. Qız dedi:

-Mən azmışam, getməyə bir yerim yoxdu.

Qoca ilə qarı onu sevinə-sevinə evə dəvət etdi-

Birlikdə şam yeməyi yedilər. Ordan-burdan nbətləşdilər. Ev sahibləri qıza dedilər ki, bizim adımız yoxdur. Sən bizim yanımızda qalsan, çox d olardıq.

Qız bu təklifi sevinclə qəbul elədi. Onlar birlikdə şamağa başladılar. Qız dedi ki, sizin qonaq-rvərliyinizin əvəzini ödəmək üçün o biri otaqda rça toxuyacam. Ancaq çox xahiş edirəm ki, qapını b mənə baxmayasınız.

Qız yan otağa keçib işə başladı. Səhərisi gün uduğu parçanı göstərdi. Qoca ilə qarı heyrətə dilər. Parça o qədər gözəl idi ki, adam ondan göz kə bilmirdi. Parça nə parça, tükdən yumşaq, əkdən yüngül.

Elə bu zaman qapı döyüldü. Bu, kəndi qapı-qapı zib parça yığan bir tacir idi. Qızın toxuduğu rçanı görəndə onun da ağlı başından çıxdı. Tez bir ıl pul çıxarıb qocaya uzatdı. Ömründə qızıl pul rməyən ev sahibləri çox sevindilər. Tacirin də vincinin həddi-hüdudu yox idi. Çünki o bilirdi ki, bu rçanı yüz qat artıq qiymətə satacaq.

Bir neçə gündən sonra tacir yenə gəldi. Xahiş di ki, qocanın qızı yenə parça toxusun. Qızına iyyət vermək istəməyən kişi ona etiraz edəndə cir dedi:

-Mən çoxlu pul verəcəm. Əgər razılaşmasan özündən küs. Əgər parça vaxtında hazır olmasa, sən buna başınla cavab verəcəksən.

Bu sözləri eşidən qoca çox qorxdu və narahat oldu. Məsələnin nə yerdə olduğunu bilən qız onu sakitləşdirdi:

-Narahat olma, atacan. İndi əvvəlkindən də gözəl parça toxuyacağam.Qız işə başladı. Elə bu zaman tacir yenidən qayıdıb gəldi. Biləndə ki, qocanın qızı parça toxumaqla məşğuldur, maraq ona güc gəldi. Qocanın etirazına baxmayaraq qapını açıb içəri girəndə gözəl qızı yox, böyük bir durna gördü. Tacir qorxudan qaçıb getdi.

Səhərisi gün qız vaxtında yeməyə gəlmədi. Qoca ilə qarı qapını açanda gözlərinə inanmadılar. Qız yoxa çıxmışdı. Ancaq otaqda əvvəlkindən də qat-qat gözəl parça var idi. Dörd tərəfə durna lələyi səpələnmişdi. Qız isə yoxa çıxmışdı.

Axşamtərəfi kəndin uşaqları qoca ilə qarını sələdilər:

-Ay baba, ay nənə, bura gəlin. Sizin evinizin üstündə gözəl bir durna uçur.

Qocalar durnaya baxa-baxa göz yaşı tökdülər, onu yanlarına çağırdılar. Ancaq bütün bunlar əbəs idi. Onlar nə qədər gözlədilərsə, durna bir daha qayıtmadı.

Ancaq görənlər belə deyirlər ki, gözəl bir gölün içindəki adada bir tənha durna yaşayır və o tənha durna sahildə gəzişə-gəzişə həmişə qoca ilə qarının yaşadığı evə baxır.

*Tərcümə edib işləyəni R.Y.Əliyev*

**Rəssam**
İlqar






Səidə Aydəmirova, 10 yaş

Salam, əziz, sevimli „Göyərçin"im! Sizə bu məktubu yazan Səidə Aydəmirovadır. Artıq 10 yaşım var. „Göyərçin" jurnalını lap kiçik yaşlarımdan sevmişəm. Jurnaldakı şeirlərdən əzbərləmişəm. Yurd yerlərimiz haqqında yazdıqlarınızdan, hekayələrinizdən bəhrələnmişəm.



LABİRİN




**Rəssam**
Aytən

**Balaca dovşanı düzgün yolla apar!**



Mahnı sovqatı



## "cücə"

**Sözləri: Rafiq Yusifoğlu**
**Musiqisi: Rəşid Şəfəq**

*Əziz balalar, şair dostum Rafiq Yusifoğlunun mənə keçən il bağışladığı "Söz çəməni" şeirlər kitabını alan kimi bir neçə günə onu oxudum. Və sevindim... Bilirsiniz niyə? İçindəki gözəl, musiqiyə uyğun şeirlərə görə. Və özümə söz verdim ki, tezliklə "Söz çəməni" adlı vokal-xor silsiləsi bəstələyəm sizin üçün. Həmin silsiləni qısa bir müddət ərzində yazdım. Oraya 4 şeir-mahnı daxildir: "Cücə", "Qalmaqal", "İtin küçüyə nəsihəti" və "Tənbəlin nəsihəti". Həmin mahnıları məktəbinizdəki bədii özfəaliyyət dərnəklərinizdə öyrənib oxuya bilərsiniz. Sizə bu işdə uğurlar diləyirik!*

**əşid Şəfəq**
*zərbaycanın Əməkdar Mədəniyyət xadimi, bəstəkar*
*tirak edənlər: Solist, cücə, toyuq, xoruz, xor*

**Solist:** - Ay lümək cücəm,
**Xor:** - Cib, cib.
**Solist:** - Dən ilə dolubdur cib.
**Xor:** - Cib, cib.
**Solist:** - Çağırıram bir kəlmə:
**Cücə:** - Ci-i-i-i-ib!...
**Toyuq:** - Qo-qo-qo-qo-qo-qo!
**Solist:** - Çağırıram bir kəlmə
**Cücə:** - Ci-i-i-i-ib.
**Xoruz:** - Quq-qu-lu-qu!
Quq-qu-lu-qu!
**Xor:** - İstəmirsən heç gəlmə!
**Solist:** - Ay lümək cücəm,
**Xor:** - Cib, cib,
**Solist**: - Dən ilə dolubdur cib.
**Xor:** - Cib, cib!




F. Köçərli adına Respublika Uşaq KİTABXANASI
İNV. №